AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)

FAKÜLTƏ: İQTİSADİYYAT VƏ İDARƏETMƏ

Təsdiq edirəm:
"İctimai idarəetmə və sosial innovasiyalar"
kafedrasının müdiri, i.ü.f.d., dos. E. Q. Məmmədov
(Protokol № )

# "AZƏRBAYCANDA SOSİAL YARDIM SİSTEMİ" FƏNNİ ÜZRƏ

# İŞÇİ TƏDRİS PROQRAMI

## (S İ L L A B U S)

## FƏNN HAQQINDA MƏLUMAT

| | |
|---|---|
| **Fənnin kodu:** | **00158** |
| **Fənnin növü:** | **Əsas** |
| **Tədris ili:** | **---** |
| **Fənnin tədris semestri:** | **Yaz** |
| **Fənnin tədris forması:** | **Əyani** |
| **Tədris dili:** | **Azərbaycan** |
| **Fakültə:** | **İqtisadiyyat və idarəetmə** |
| **Qrup:** | **----** |
| **Kafedra:** | **"İctimai idarəetmə və sosial innovasiyalar"** |

**Tədris yükü:** ----

**Kredit sayı:** 6

## MÜƏLLİM HAQQINDA MƏLUMAT

**Fənni tədris edən müəllim:** B/müəl. Köçərli Leyla Rais qızı

**E-mail ünvan:** leyla_kocharli@unec.edu.az

**İş telefonu:**

**Tələbələr üçün qəbul vaxtları:** ----

## FƏNNİN TƏSVİRİ

Hər bir ölkədə aztəminatlı ailələrin yoxsulluqla üzləşməsinin qarşısını almaq və sosial rifahının yaxşılaşdırılması üçün müxtəlif tədbirlər həyata keçirilir. Sosial müdafiənin ən vacib istiqamətlərindən biri sosial yardımdır. Məlumdur ki, sosial müdafiənin funksiyası, çətin həyat şəraitində yaşayan insanlara yardım etməkdən və ya yaranmış bu vəziyyətin qarşısını almaqdan ibarətdir. Əgər insan sosial sığorta sistemi ilə əhatə olunmayıbsa, onda onun gəlirinin müvəqqəti və ya xroniki azalması qarşısında yeganə dəstəyi - dövlət sosial yardım proqramları verə bilər. Sosial yardım dovlət budcəsinin vəsaiti hesabına maliyyələşdirilir. Bu fənn iqtisadiyyatın inkişafının müasir mərhələsində sosial yardım sisteminin rolu və onun qiymətləndirilməsi, o cümlədən Azərbaycanda sosial transfertlər sisteminə təsir edən amilləri, yoxsulluğun aradan qaldırılması və işsizliyə qarşı mübarizədə dövlətin sosial siyasətini, işsizlik sığortası kimi sosial sığorta ayırmaları o cümlədən, müharibə əlillərinə ödənilən müavinətləri, kompensasiyaları, ünvanlı dövlət sosial yardımı, sosial siyasət baxımından gəlirlərin bölgüsü və onu təyin edən amilləri, sosial yardım və müdafiə sistemini əhatə edir.

## FƏNNİN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

Məlum olduğu kimi,insanları sosial təhlükələrdən qorumağı hədəfləyən sosial yardımlar zəruri ehtiyaclarını ödəyə bilməyənlər üçün sosial təminat metodu və sosial iş sahəsidir. Fənnin tədrisi zamanı əsas məqsəd sosial yardım sisteminin formalarının təhlili, sosial transfertlər, maliyyə yardımı, dotasiyalar və müxtəlif növ güzəştlərin tətbiqinə yönəldilmiş nəzəriyyələrin və Azərbaycan Respublikasının sosial təminat sahəsində qanunvericiliyin tələbələrə çatdırılmasıdır.

Fənnin tədrisi müddətində əsas vəzifə dövlət tərəfindən tətbiq olunan tədbirlər kompleksinin əsas cəhəti kimi sosial təminat hüquq normalarını tətbiq etmək vərdişlərinə yiyələnmək, bir insan haqqı olaraq insanlara qarşı xeyirxah münasibətlərin bəslənməsi ilə bağlı irəli sürülən sosial yardım yanaşmalarını

tələbələrə aşılamaq, Azərbaycanda ünvanlı sosial yardım sistemində atılan innovativ addımları tələbələrə təqdim etməkdir.

## FƏNNİN TƏDRİS METODOLOGİYASI

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir. Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli internet resurslarından götürülmüş məqalələrin, real nümunələrin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqları formalaşdırması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqlar həll edəcəklər.

## ÖYRƏNİLMƏNİN NƏTİCƏLƏRİ

"Azərbaycanda sosial yardım sistemi" fənni mənimsədikdən sonra tələbə aşağıdakı səriştə və bacarıqlara malik olur:

***Tələbələr bilməlidirlər:***

- Sosial yardımın hansı qanunlar əsasında fəaliyyət göstərdiyini;
- Sosial yardım sektorunda mövcud olan yanaşmaları;
- Azərbaycan Respublikasında Dövlət Sosial Müdafiə Fondunun fəaliyyət istiqamətlərini, vəzifə və hüquqlarını;
- Yoxsulluq və bununla bağlı digər problemlərin həllində sosial işçilərin mikro, mezzo və makro səviyyədə rollarını;
- Sosial yardımın məşğulluqla əlaqələndirilməsinin başlıca üstünlüyünü;
- İşaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin ünvanlı dövlət sosial yardım sistemi ilə əlaqələndirilməsi işi çərçivəsində müxtəlif ölkələrdə həyata keçirilən tədbirləri;
- Əmək pensiyası və sosial müavinətin bir-birindən fərqini;
- Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsis edilmiş təqaüdlərin hansı qaydalara əsasən təyin olunması hallarını;
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnaməni;
- Avropa ölkələrində sosial yardımların təyin olunması üçün əsas hesab edilən şərtlər ilə Cənubi Amerika ölkələrində sosial yardımların təyin olunması üçün əsas hesab edilən şərtləri.

***Tələbələr bacarmalıdırlar:***

- Sosial yardım təcrübələrində rast gəlinən riskləri araşdırmağı;
- Aylıq və birdəfəlik müavinətlərin təhlilini aparmağı;
- Ailənin orta aylıq gəlirini hesablamağı;

- Aztəminatlı ailənin ünvanlı sosial yardımla təmin edilməsində il ərzində ehtiyac meyarının nə qədər olduğu barədə bilgi əldə etməklə, həmin ailəyə veriləcək məbləği;
- Sosial yardım sistemi ilə sosial xidmət sistemini və sosial sığorta sistemini qarşılıqlı ələqələndirməyi;
- İstehlak səbətinin qiymətini və İstehlak Qiymətləri İndeksini müəyyən edən düsturları tətbiq etməklə, istehlakçıların istehlak səbətinə daxil olan məhsul və xidmətlərin ümumi qiymət səviyyəsinin dəyişməsi ilə bağlı müxtəlif tapşırıqları həll etməyi.

## PREREKVİZİTLƏR

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn yoxdur.

## FƏNNİN MÜHAZİRƏ VƏ MƏŞĞƏLƏ MÖVZULARI

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 2 saat (2 saat mühazirə olmaqla) vaxt ayrılır. Fənn 8 məşğələ mövzusundan ibarətdir. 8 mövzunun hər birinə 2 saat vaxt ayrılır.

| Sıra | Mövzuların adları | Mühazirə dərsləri | Seminar dərsləri |
|---|---|---|---|
| 1 | Sosial yardım sisteminin nəzəri əsasları | 2 | 2 |
| 2 | Sosial yardım sisteminin tarixi inkişaf mərhələləri | 2 | |
| 3 | Sosial yardım sektorunda yanaşmalar | 2 | 2 |
| 4 | AR ƏƏSMN Yanında Dövlət Sosial Müdafiə Fondunun əsas vəzifələri, məqsəd və funksiyaları | 2 | |
| 5 | Sosial yardımın sosial təminat metodları ilə qarşılıqlı əlaqəsi | 2 | 2 |
| 6 | Sosial iş və sosial yardım sistemi | 2 | |
| 7 | Sosial yardım və yoxsulluq | 2 | 2 |
| 8 | Azərbaycanda yaşayış minimumu və ehtiyac meyarı | 2 | |
| 9 | Azərbaycanda ünvanlı dövlət sosial yardımın təşkili mexanizmləri | 2 | 2 |
| 10 | Azərbaycanda ünvanlı sosial yardım və məşğulluq siyasətinin əlaqələndirilməsi | 2 | |
| 11 | Azərbaycanda sosial müavinət sistemi | 2 | 2 |
| 12 | Azərbaycanda təqaüd və kompensasiyaların təyinatı | 2 | |
| 13 | Azərbaycanda tibbi-sosial yardım sahəsində inkişaf göstəriciləri | 2 | 2 |
| 14 | Azərbaycanda avtomatlaşdırılmış sosial yardım sıstemi | 2 | |
| 15 | Dünya təcrübəsində sosial yardım sistemi | 2 | 2 |
| | **CƏMİ** | **30** | **15** |

## ƏSAS DƏRSLİK VƏ ƏDƏBİYYAT

| Fənnin tədrisində istifadə olunan əsas dərslik | Fənnin tədrisində istifadə olunan əlavə dərslik | Fənnin tədrisində istifadə olunan internet resursları |
|---|---|---|
| 1. Doç. Dr. Faruk Taşçı "Yoksulluk ve sosyal hizmet", İstanbul Üniversitesi Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi.<br>2. Prof. Dr. Halis Yunus Ersöz "Sosyal politika" Ders notu, İstanbul Üniversitesi Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi. | 1. Sosial Hüquqlar Mərkəzi və Bakı İnsan Hüquqları əməkdaşlıq çərçivəsində ünvanlı sosial yardımla bağlı təlimat kitabçası, Baki-2023<br>2. Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları | 1. http://e-qanun.az<br>2. http://sosial.gov.az<br>3.https://yashat.gov.az<br>4.https://www.coe.int/az/web/compass/poverty |

## FƏNNİN MÜHAZIRƏ MƏTNLƏRİ

Fənn üzrə bütün mühazirə mətnləri, təqdimatlar, müzakirə sualları və tapşırıqlar elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.unec.edu.az), müəllimin şəxsi kabinetində yerləşdirilmişdir.

## MÖVZULARIN MƏZMUNU VƏ TƏDRİS-TEMATİK BÖLGÜSÜ

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat sıyahısı |
|---|---|---|---|
| 1. | Sosial yardım sisteminin nəzəri əsasları | Sosial yardımın mahiyyəti; Sosial yardımların müsbət tərəfləri; Sosial yardımların mənfi tərəfləri. | 1. Prof. Dr. Halis Yunus Ersöz "Sosyal politika" Ders notu, İstanbul Üniversitesi Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi. 2. Doç. Dr. Faruk Taşçı "Yoksulluk Ve Sosyal Hizmet", İstanbul Üniversitesi Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi. 3. Yrd. Doç. Dr. Abdulhakim Beki "Türkiye'de Sosyal Hizmet Uygulamaları" Ders notu, İstanbul Üniversitesi Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi. 4. Sosial Hüquqlar Mərkəzi və Bakı İnsan Hüquqları əməkdaşlıq çərçivəsində ünvanlı sosial yardımla bağlı təlimat kitabçası, Baki-2023 |
| 2. | Sosial yardım sisteminin tarixi inkişaf mərhələləri | Sənaye inqilabından əvvəl və sənaye inqilabı zamanı sosial yardımlar; Azərbaycanda sosial təminat sisteminin inkişaf mərhələləri. Azərbaycanda | 1."Özünədəstək" - Birdəfəlik ünvanlı dövlət sosial yardımı Proqramının səmərəliliyinin qiymətləndirilməsi, Bakı – 2013, s. 11-14. 2. Doç. Dr. Faruk Taşçı "Yoksulluk ve sosyal hizmet", İstanbul Üniversitesi Açik |

| | | | |
|---|---|---|---|
| | | ünvanlı dövlət sosial yardım sisteminin yadılması və inkişafı. | Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi, s.145-153; 3. Erdal Tanas Karagöl, Nergıs Damageçmişten "Geçmişten günümüze sosyal yardımlar", İstanbul 2015, s.12<br>https://www.sosial.gov.az/tarixi |
| **3.** | Sosial yardım sektorunda yanaşmalar | Humanitar yanaşma: sosial yardım bir insan haqqı olaraq; Cəmiyyətə fokuslanmış yanaşma; Dövlətə fokuslanmış yanaşma: əsas vəzifə; Birlik yanaşması | 1.Doç. Dr. Faruk TAŞCI "Yoksulluk ve sosyal hizmet", İstanbul Üniversitesi Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi, s. 110-112<br>2.Arş.Gör. Faruk Taşcı "Sosyal yardım yapma(ma) gerekçeleri üzerine yaklaşımlar"<br>3.https://yashat.gov.az<br>4. https://president.az/ |
| **4.** | AR ƏƏSMN Yanında Dövlət Sosial Müdafiə Fondunun əsas vəzifələri, məqsəd və funksiyaları | Azərbaycan Respublikasında Dövlət Sosial Müdafiə Fondunun yaranma tarixi; Dövlət Sosial Müdafiə Fondunun fəaliyyət istiqamətləri, vəzifə və hüquqları; Dövlət Sosial Müdafiə Fondunun nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları. | 1.Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı ilə təsdiq edilmiş Dövlət Sosial Müdafiə FondununNizamnaməsi.<br>2.https://www.sosial.gov.az/dsmfstruktura<br>3.https://president.az/ |
| **5.** | Sosial yardımın sosial təminat metodları ilə qarşılıqlı əlaqəsi | Sosial təminat sistemi; Sosial xidmətin mahiyyəti və onun sosial yardımla qarşılıqlı əlaqəsi; Sosial sığorta sisteminin mahiyyəti və onun sosial yardımla qarşılıqlı əlaqəsi. | 1. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu;<br>2. Sosial Xidmətlər Agentliyinin Nizamnaməsi;<br>3."Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu;<br>4. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu.<br>5. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu;<br>6. Doç. Dr. Faruk Taşcı "Yoksulluk ve sosyal hizmet", İstanbul Üniversitesi Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi. S. 90-93. |
| **6.** | Sosial iş və sosial yardım sistemi | **Sosial işin mahiyyəti və vəzifələri; Sosial ədalətin həyata keçirilməsində sosial işin rolu; Sosial yardım sistemində sosial işçilərin rolu.** | 1."Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu.<br>2.Prof. Dr. İlhan Tomanbay "Sosyal hizmet yönetimi" (Ders notu) İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, Auzef Yayını 2016.<br>3. Yrd. Doç. Dr. Abdulhakim Beki "Türkiye'de Sosyal Hizmet Uygulamaları" (Ders Notu), İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programı, s. 221-222 |

| | | | |
|---|---|---|---|
| **7.** | Sosial yardım və yoxsulluq | Yoxsulluq anlayışı və onun növləri; Yoxsulluğun səbəb və nəticələri; Sosial yardım və yoxsulluq arasında əlaqə | 1.Doç. Dr. Cihan Yüksel " Gelir dağılımı ve yoksulluk" Özet Ders Notları, Mersin Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Çalışma Ekonomisi ve Endüstri İlişkileri Bölümü Son Güncelleme, 2020 s.122-127. 2. Doç. Dr. Faruk Taşcı "Yoksulluk ve sosyal hizmet", İstanbul Üniversitesi Açik ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi. s. 88-90<br>3. Mehmet Güneş "Yoksullukla mücadelede sosyal yardımların bir kamu yönetimi politikası olarak sürdürüle bilirliği", SÜ İİBF Sosyal ve Ekonomik Araştırmalar Dergisi. S. 155-162<br>4. Prof.Dr. Eyüp Bedir, Arş.Gör.Dr. Okan Güray Bülbül ve b. "Sosyal Politika", Anadolu Üniversitesi, Eskişehir, Ağustos 2018, s. 100-103<br>5. Prof. Dr. Halis Yunus Ersöz "Sosyal politika" Ders notu, İstanbul Üniversitesi, Açik Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Ön Lisans Programi, s. 249-252 |
| **8.** | Azərbaycanda yaşayış minimumu və ehtiyac meyarı | Yaşayış minimumu; Yaşayış minimumun hazırlanmasında nəzərə alınan göstəricilər; Ehtiyac meyarı | 1."Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 5 oktyabr 2004-cü il;<br>2.https://www.sosial.gov.az/<br>3.https://banco.az/az/news/istehlak-qiymetleri-indeksi-nedir |
| **9.** | Azərbaycanda ünvanlı dövlət sosial yardımın təşkili mexanizmləri | Sosial yardımın məqsədi və prinsipləri; Ünvanlı dövlət sosial yardımın təyin edilməsi; Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciətlər; Sosial yardımın verilməsi və verilməsinin dayandırılması; Sosial yardımın təyin olunması üçün ailənin orta aylıq gəlirinin hesablanması metodikası. | 1. "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu<br>2. Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi QAYDALARI<br>3. Sosial Hüquqlar Mərkəzi və Bakı İnsan Hüquqları əməkdaşlıq çərçivəsində ünvanlı sosial yardımla bağlı təlimat kitabçası, Baki-2023<br>4. https://www.sosial.gov.az/ |
| **10.** | Azərbaycanda ünvanlı sosial yardım və məşğulluq siyasətinin əlaqələndirilməsi | Azərbaycanda ünvanlı sosial yardım sistemində innovativ addımlar məşğulluğun hədəfi kimi; "Məşğulluq haqqında" Azərbacan Respublikası Qanununa uyğun olaraq işaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili; İşaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin ünvanlı dövlət | 1. Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu<br>2. "Özünüməşğulluğun təşkili Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı<br>3. "İşaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan |

| | | | |
|---|---|---|---|
| | | sosial yardım sistemi ilə əlaqələndirilməsi işi çərçivəsində müxtəlif ölkələrdə həyata keçirilən tədbirlər. | Respublikası Nazirlər Kabinetinin Qərarı<br>4. CESD Tədqiqat Qrupu "Azərbaycanda ünvanlı sosial yardım və məşğulluq siyasətinin əlaqələndirilməsi", Bakı Fevral 2017<br>5. AZƏRBAYCAN Ölkə hesabatı 2020 https://files.returningfromgermany.de/files/CFS_2020_Azerbaijan_AZ.pdf<br>6.https://dma.gov.az/fealiyyet/fealiyyet/funksional-istiqametler/pese-hazirliqi |
| **11.** | Azərbaycanda sosial müavinət sistemi | Sosial müavinət sistemi və onun əmək pensiyasından fərqli xüsusiyyətləri; Azərbaycanda sosial müavinətlərin təyin edilməsi; Müavinətlərin ödənilməsi və müavinətlərin ödənişinin dayandırılması qaydaları | 1. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanunu;<br>2. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu<br>3. "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı<br>4. http://www.e-qanun.az/<br>5. https://www.sosial.gov.az/ |
| **12.** | Azərbaycanda təqaüd və kompensasiyaların təyinatı | Azərbaycan respublikası prezidentinin təqaüdlərin növləri və ödənilməsi qaydaları; Təqaüdün ödənişinin dayandırılması halları; Kompensasiya ödənişlərinin nəzəri əsasları. | 1. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.<br>2. "Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı.<br>3. Akademik Ziyad Əliabbas oğlu Səmədzadə "Böyük İqtisadi Ensiklopediya", Bakı – 2012, S. 224-226<br>4.http://dost.gov.az/services/assignment-of-the-presidential-grant/?kt=30<br>5. https://www.dxr.az/xidmet/ |
| **13.** | Azərbaycanda tibbi-sosial yardım sahəsində inkişaf göstəriciləri | Vətəndaşların tibbi-sosial yardım hüququ; Vətəndaşlara tibbi-sosial yardımın həyata keçirilməsində zəmanətlər; Azərbaycanda əlilliyi olan şəxslərin sosial müdafiəsi və tibbi-sosial reabilitasiyası. | 1. Azərbaycan Respublikasının Konstitusiyası.<br>2. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu<br>3. https://www.sosial.gov.az/<br>4. https://www.dxr.az/xidmet/ |
| **14.** | Azərbaycanda avtomatlaşdırılmış sosial yardım sistemi | 1. Mərkəzləşdirilmiş elektron informasiya sistemininə daxil olan altsistemlər və reyestrlər; Mərkəzləşdirilmiş elektron informasiya sisteminin proqram texniki kompleksi, fəaliyyət prinsipləri və infrastrukturu; | 1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin və "e-sosial" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan |

| | | | |
|---|---|---|---|
| | | Azərbaycanda avtomatlaşdırılmış sosial yardım sistemində rəqəmsal hökumət konseptinin məqsədləri. | Respublikası Prezidentinin 2019-ci il 15 aprel tarixli 634 nömrəli Fərmanı<br>2. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu<br>3. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanunu. 4. "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 393 nömrəli Fərmanı<br>5. http://www.e-qanun.az/framework/41978<br>6. https://www.sosial.gov.az |
| **15.** | Dünya təcrübəsində sosial yardım sistemi | Avropa ölkələrində sosial yardım sistemi; Cənubi Amerika ölkələrində sosial yardım sistemi; ABŞ-da sosial yardım sistemi | 1. Erdal Tanas Karagöl, Nergis Dama "Geçmişten Günümüze Sosyal Yardımlar", 2015<br>2. Azərbaycanda Ünvanlı Sosial Yardım Proqramı: Mövcud Vəziyyətin Qiymətləndirməsi və Təkmilləşdirilməsi İstiqamətləri CESD Tədqiqat Qrupu, Bakı Dekabr 2016, S.14-16<br>3. Çalışma Ve Sosyal Güvenlik Bakanlığı, Dış İlişkiler ve Yurtdışı İşçi Hizmetleri Genel Müdürlüğü, "Sosyal Dışlanma Bağlamında Sosyal Yardımlar Ve Karşılaştırmalı Politika Önerileri", Tez Danışmanı Prof. Dr. Eyüp Günay, İsbir Uzmanlık Tezi Asuman Aktaş, Ankara, Nisan 2014. |
| **YEKUN İMTAHAN** | | | |

## DƏRSƏ DAVAMİYYƏT

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

## FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (*Əyani təhsilalma forması üzrə*)

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə

və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$$

Burada,

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman

həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - “əvəzgün” verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi

təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

*QEYD:* İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

*Beləliklə, Fənn üzrə kredit qazanmaq üçün tələb olunan 100 balın ayrılması*

- *50 Bal – Yekun imtahanından əvvəl qazanılan*
- *30 Bal – Aralıq imtahanı*
- *20 Bal – Praktik iş (seminar)*

*Dərsdə Davamiyyət-75% Davam Məcburidir*

*50 bal – Yekun imtahanda qazanılmışdır.*

**TƏCRÜBƏ**

Bu fənn üzrə istehsalat təsrübəsi yalnız ixtisas qrupları üzrə nəzərdə tutulub.

**TƏRTİB ETDI:**  ***Baş müəllim KÖÇƏRLİ LEYLA RAİS q.***